# könüllərə yol gəzirəm

## Aida xanım

Əzəmətli bir heykəldir,
Filoloq Aida xanım.
Əli də qabarlı əldir,
Filoloq Aida xanım!

Kiçik elmi işçilikdən,
Müdirliyə bir yol keçdi.
Sözünü bişirdi, seçdi,
Filoloq Aida xanım!

Nüaymәni araşdırdı,
Elmi özünə yaraşdırdı,
Daima axtarışdaydı,
Filoloq Aida xanım!

Dahilik zirvəsindəydi,
Kamillik zirvəsindəydi,
Aqillik zirvəsindəydi,
Filoloq Aida xanım!

Atası bir fədaidi,
Doğru məlumat yolunda.
Özü də fədai oldu,
Elmi məlumat yolunda.

Böyütdü əxlaqlı xanım,
Böyütdüyü xanım ilə,
Böyüdü Azərbaycanım!
Filoloq Aida xanım!
Filoloq Aida xanım!

## Ağlamayım neyləyim

Nənə deyib onu axtarır gözüm,
Onunla keçməyib bugün, dünənim.
Şəkli əl salladı, mən necə dözüm,
Onsuzluqda ağlamayım, neyləyim?

Qoyduğu adilәmən tanınıram,
Qəbrini görürəm, özün görmürəm.
Hər ömrün sonuyla barışsam da mən,
"Sonsuzluqda" ağlamayım, neyləyim!

Düz 12 il keçib ölümündən,
Bətndə olan oğlan deyiləm mən,
12 yaşım var, bu taleyimdən,
Küsməsəm də, ağlamayım, neyləyim?

Daha məzarlıqda boş yer qalmayıb,
Bəlkə o dirilə, yerlər boşala.
Sevindik eşi də onun dilindən,
Həsrət bitə, sözlərindən güc ala.

Ya o getməyəydi, məni görəydi,
Ya tez doğulaydım, onu görəydim.
Həsrət odunu Əslimiz söndürsə də,
Dözəmmirəm, ağlamayım, neyləyim?!
Dözəmmirəm, ağlamayım, neyləyim?!

## Bir sevgi göründü gözümə

Bir sevgi göründü gözümə,
Yazın ilk günündan başladı.
Bu başqa sevgi və dastanıydı,
Ürkək qızın gülündən başladı.
Mən dastanı, o sevgini oxudum,
O vaxtacan sevgilərdə yoxudum.
Öz sevgimi gördüm, dedim, qoy yarım,
Dastan oldu, şeir oldu, nə bilim.

Çərşənbə günüydü, çeşmə başıydı,
Gələn-gedən hamısı gənc yaşıydı.
Alovlu çağları olan başıydı,
Bir qız gördüm libası yaraşırdı.
Əlində bir gül var idi,
«Sevir-sevmir» söyləyirdi.
Halbuki, sevmirdi də,
Bəlkə seviləcək idi.
Onu kimin sevdiyini,
O gül biləcəkdi də.
Birdən oyunu bitdi,
Yerə qondu gül.
Baxdı oğlan qıza,
Oxudu bülbül;
«Səni mənə versələr,
Allaha da xoş gələr».
Qız da baxdı oğlana;
«Nə olub ay oğlan»?
«Səni mən sevirəm,
Gör nə zamandan»
Oğlan bülbül idi,
Qız da ki gülü,
Gülü də ölsəydi ölər bülbülü.
Oğlanın sözləri batdı ağlına,
Sancdı beynini, döndü soluna.
Döndü sağına;
«Yox, yox elə bil görmüşəm bunu,
Ya uşaqlığımda, ya da bucağımda.
Mən bunu məktəbdə ərgən görmüşəm.
Ax ...bu Hüseyndir,
Onu sevmişəm, ax... bu Hüseyndir,
Necə tanımıram?
Mənlə görüşərdi,
Getməzdi partamdan».
Oğlan oxuyurdu,
Hey oxuyurdu, lap 15 yaşındakı kimi.
Oxuyurdu; «ay qız, ay qız, oyan, ay qız,
Ay tülək-tərlan, mən səni sevmişəm,
Gör nə zamandan.
Həsrətinlə ölmüşəm, gör nə zamandan».
Qız da onla oxuyurdu;
«Ay Hüseyn, ay Hüseyn,
Səni sevmişəm,
Sənsiz səni yuxumda çox istəmişəm.
Sonra da danışdılar;
Ay hüseyn, ay Hüseyn,
Harada idin sən?
Burda idim mən.
Bilirsənmi gör neçə yol,
Səni gözləmişəm.
İndi qalmayıbdır məndə,
15 yaşın enerjisi,
Sərf olunub qalıb səndə.
20.07.2019.

## Cabir Novruz

Bir dəfə gəldi dünyaya,
Gəlməyəcək, Cabir Novruz.
Lakin gəldiyi dünyada,
Ölməyəcək, Cabir Novruz.

Dağılmış evləri gördü,
Saralmış gülləri gördü,
Qurumuş gölləri gördü,
Neynəyəcək? Cabir Novruz.

Narahat olma, ey şair,
Bu xalq ölüm-itimləri,
Faciəni yaddaşından,
Silməyəcək, Cabir Novruz.

"Müəllimi Peyğəmbəri",
Unutmuşdu dərdi-səri,
Belə şairlər aləmi,
Bitməyəcək, Cabir Novruz.

Çoxlarını qandırmışdı,
Dahilər inianmışdı,
Özü şam kimi yanmışdı,
Sönməyəcək, Cabir Novruz.

"Qarabağ üçün" deyirdi,
Qarabağı çox sevirdi,
Təəssüf ki, Qarabağı,
Görməyəcək, Cabir Novruz.
Bir dəfə gəldi dünyaya,
Gəlməyəcək, Cabir Novruz...
Əcəl gəlib aparsa da,
Qəlblərdə daim yaşayıb,
Ölməyəcək Cabir Novruz.
12.03.2019.

## Çərşənbə axşamı

Xarab ətin kilosunu bir manata alırsan,
Sonra onu təmiz adla 5 manata satırsan.
Gələcəyimizi yaman günə salırsan,
Din, imanın olmayacaq haramxor.
Heç vicdanın olmayacaq haramxor.

Varlanmaqçün xalqa quyu qazırsan,
Bir az varlandınmı yolu azırsan,
Nisyə dəftərinə borclar yazırsan,
Din, imanın olmayacaq haramxor.
Heç vicdanın olmayacaq haramxor.

Murdar cəsəd alıb təmiz kimi sən,
Özün kimi işbazlara verirsən,
Yaxının da yeyir bunu bilirsən,
Din, imanın olmayacaq haramxor.
Heç vicdanın olmayacaq haramxor.

Bir gün gələr əməliniz faş olar,
Sizin də bağçada çiçəklər solar,
O vaxt inləyib edərsən ah-zar,
Öz vicdanın səni boğar haramxor.
Onda artıq çox gec olar haramxor.

## Memar Əcəmi

Metro qapısı açılır,
Hamı girir metroya.
Birdən gözəl qadın deyir:
"Metrodakı insanlar,
Qapılarımız bağlanır!
Gözəl Memar Əcəmi,
Bu növbəti stansiyadır!"
Qapılar o vaxt bağlanır!
Könül qapısı açılır!
Əzizlərim,
Sizin durduğunuz yerdə
Memar Əcəmi durmuşdur!
Abbas Səhhət,
Mirzə Cəlil,
Mirzə Sabir də durmuşdur!
Elə bil onlar canlanır,
İnsanlar bunu anlayır!
Mirzə Cəlil, Mirzə Sabir,
Durduğumuz yerdə deyir:
" Mənim durduğum yerdəsən!
Sən bu Azərbaycanımın,
Müasir Şəhdi gülüsən!
Həm Müasir Tomrisisən!"
Artıq budur, gəlib çatdıq,
Dəli külək əsə indi.
Artıq budur gəlib çatdıq,
Elə bil Parisə indi.
30.04.2017. Bazar.

## Sərhədi yox...

Hər yerdə oxuya bil sən,
Oxumağın sərhədi yox.
Oxu deyib O Peyğəmbər,
Bil, inamın sərhədi yox.

Gülməli, ya ağlamalı,
İzləməyin sərhədi yox.
Götürməli, ya almalı,
Hərəkətin sərhədi yox.

Həyat özü bir dərs olub,
Dərs almağın sərhədi yox.
Nəsil olub, ya irs olub,
Ucalmağın sərhədi yox.
Sol tərəfdən sağ tərəfdən,
Qarışmağın sərhəddi yox.
İtələməyin, keçməyin,
Ağrıtmağın sərhədi yox.

Pis şeyin də sərhədi yox,
Yaxşının da yoxdur bir an.
Sərhədli olan tək şey var,
Qarabağsız Azərbaycan!
30.11.2019.

## Kralın kürəkəni

Əsr oldu 14-cü,
Türk dövləti şahə qalxdı,
Türkün dövləti ucaldı,
Sultanla torpaq çoxaldı.
Osmanlının torpağı,
Sarabyanı aşmışkən,
Soltan oğlu o Murad,
Kosovaya varmışkən,
Döyüşdü Kosovada,
Dinsiz serblərə qarşı,
Sonralar alovlandı,
Kosovanın savaşı.
Padşah oğlu düşündü:
«Serblər artıq azalıb,
Kosova savaşında,
Kürəkən, kral qalıb.
Gün doğmadan vuraq biz,
Serblərin kralına,
Kosovanı keçək biz,
Varaq bütün Balkana.
Burdakı düşmənləri,
Batıraq biz al qana»
Nəhayət başladı o,
Həlledici savaşlar.
Kürəkənlə döyüşdü,
Serbin qorxaq kralı.
Kürəkən yaralandı,
Verdilər Kosovanı.
Bitdi bu müharibə
Müsəlmanlar qazandı.
Lakin Murad gəzərkən,
Bir haqsızlıq yarandı.
Tülkülərin etdiyi,
Hiyləgərlik yaşandı.
Murad döyüş meydanında,
Atın şahə qaldırırkən,
Bir gavur serbli gəlmişdi,
Kralın kürəkəniydi.
Murad atdan düşən kimi,
Yıxıldı o ayağına.
Dedi ki, bağışla məni,
Etmişəm bir dinsizliyi.
O qorxaq Kral ilə mən,
Gücünü görməyibmişəm.
Kral özünə güvənirdi,
Sizsə etiqad etdiniz,
Bununla da, özünüzü,
Yuxarıya yüksəltdiniz.
Mən sizə heyran olmuşam,
Dininizə vurulmuşam.
İstərəm ki, indi bugün,
Pis dinimi dəyişdirəm.
Özümü sarsaq Miloş yox,
Ağıllı Məhəmməd edəm.
Sultanım inandı buna,
Ey vallah dedi və bir də,
Ona qollarını açdı.
Miloşsa üstünə qaçdı.
Çıxardı murdar xəncərin,
O Sultanıma batırdı.
Əsgərlər inanmadılar,
Sultanı qoruyammadılar.
Miloş qaçmaq istəyirdi,
Əsgərlərsə qoymadılar.
Yerindəcə öldürdülər,
Cəhənnəmə göndərdilər.
Bu dinsizlik, tarixdə ilk,
Heç yaddan çıxmayacaqdır!
Gələcəyin İslambolu,

Nəsiboğlu, Sevindik